No: 02 2026
https://doi.org/10.64400/ea26-02-25
ISSN 2224-5529 2224-0829 2223-5124 2222-940X

NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN ELMİ ƏSƏRLƏR JURNALI

# MƏRKƏZİ ASİYANIN TÜRK DÖVLƏTLƏRİ VƏ ERMƏNİSTAN: REGİONAL NƏQLİYYAT-ENERJİ LAYİHƏLƏRİNDƏ MƏHDUDİYYƏTLƏR VƏ İKİTƏRƏFLİ ƏLAQƏLƏRİN SİYASİ SƏRHƏDLƏRİ

**Kəmalə ƏFƏNDİYEVA**
AMEA-nın Akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutu, Bakı, Azərbaycan
*Yazışılan müəllif: kamalaxudaverdi99@gmail.com*

**NƏŞR TARİXİ:**
*Qəbul edilmə tarixi:* 06.06.2026
*Nəşr edilmə tarixi:* 25.06.2026

**AÇAR SÖZLƏR:** Mərkəzi Asiya, Ermənistan, nəqliyyat-enerji layihələri, Orta Dəhliz, siyasi sərhədlər.

**XÜLASƏ**
Tədqiqatın ümumi məlumat kontekstini SSRİ-nin dağılmasından sonra Mərkəzi Asiyanın türk dövlətləri ilə Ermənistan arasında formalaşan ikitərəfli əlaqələr və regional geosiyasi reallıqlar təşkil edir. Məqalənin əsas məqsədi Ermənistanın regionun qlobal nəqliyyat-enerji layihələrindən kənarda qalma mexanizmlərini, türk dövlətlərinin bu ölkə ilə münasibətlərində formalaşan siyasi sərhədləri və Azərbaycan faktorunun bu prosesə həlledici təsirini müəyyən etməkdir. Tədqiqat zamanı sistemli və müqayisəli siyasi təhlil, eləcə də tarixi-xronoloji metodlardan istifadə edilmiş, region ölkələrinin rəsmi makroiqtisadi göstəriciləri material qismində götürülmüşdür. Əldə olunan nəticələr göstərir ki, Mərkəzi Asiyanın türk respublikaları Ermənistanla kollektiv təhlükəsizlik və inteqrasiya bloklarında formal müttəfiq olsalar da, ikitərəfli ticarət-iqtisadi əlaqələr minimal səviyyədədir. Mövcud real iqtisadi-logistik maraqlar "Orta Dəhliz" xətti ilə tamamilə Azərbaycan və Türkiyəyə yönəlmiş və İrəvanı geosiyasi izolyasiyaya məruz qoymuşdur. Yekun nəticə olaraq qeyd edilməlidir ki, Ermənistanla münasibətlərin gələcək dinamikası və mövcud siyasi sərhədlərin dəyişməsi birbaşa olaraq Cənubi Qafqazda formalaşan yeni geosiyasi şərtlərdən, həmçinin İrəvanın regional kommunikasiyaların, xüsusilə Zəngəzur dəhlizinin açılması prosesindəki konstruktiv mövqeyindən və strateji balans yaratmaq imkanlarından asılıdır

## GİRİŞ

Postsovet məkanında regional təhlükəsizlik və inteqrasiya proseslərinin dərindən dərk edilməsi Cənubi Qafqaz və Mərkəzi Asiya regionları arasındakı çoxvektorlu strateji qarşılıqlı əlaqələrin təhlilini zəruri edir. SSRİ-nin dağılmasından sonra müstəqillik qazanmış Mərkəzi Asiyanın türk dövlətləri (Qazaxıstan, Özbəkistan, Türkmənistan və Qırğızıstan) xarici siyasətlərində praqmatizm və çoxvektorluluq prinsiplərini əsas götürmüşdürlər (Sultanov, 2022). Lakin bu dövlətlərin Ermənistan Respublikası ilə ikitərəfli və çoxtərəfli münasibətlərinin dinamikası birbiri ilə ziddiyyət təşkil edən fərqli siyasi-hüquqi platformalar kontekstində inkişaf etmişdir. Bir tərəfdən, Ermənistan və müəyyən Mərkəzi Asiya ölkələri Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və Avrasiya İqtisadi İttifaqı (Aİİ) çərçivəsində rəsmi müttəfiq statusuna malikdirlər (Məmmədov, 2023). Digər tərəfdən, Mərkəzi Asiyanın türk dövlətləri Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində Azərbaycan Respublikası ilə dərin tarixi, etnik və strateji müttəfiqlik əlaqələrini sürətlə inkişaf etdirirlər (Özyurt, 2024).

Bu iki fərqli inteqrasiya xəttinin kəsişməsi Mərkəzi Asiyanın türk dövlətlərinin Ermənistan siyasətində kəskin regional "siyasi sərhədlərin" cızılmasına səbəb olmuşdur. Ermənistanın uzun illər boyu davam edən işğalçılıq siyasəti və Cənubi Qafqazda yaratdığı təhlükəsizlik riskləri bu dövlətlərin İrəvanla iqtisadi, logistik və enerji əlaqələrini minimum səviyyədə saxlamasını şərtləndirmişdir (Kazantsev & Sablin, 2021). Son illərdə qlobal geosiyasi dəyişikliklər fonunda aktuallığı artan Şərq-Qərb Trans-Xəzər nəqliyyat dəhlizi ("Orta Dəhliz") və irimiqyaslı enerji layihələri Mərkəzi Asiya resurslarının Ermənistandan yan keçməklə, birbaşa Azərbaycan üzərindən dünya bazarına çıxışını təmin etmişdir (Satubaldina, 2023).

Mövcud elmi ədəbiyyatda Mərkəzi Asiya ölkələrinin xarici siyasəti geniş araşdırılsa da, onların Ermənistanla münasibətlərindəki nəqliyyat-enerji məhdudiyyətləri və siyasi sərhədlər vahid sistem halında kifayət qədər təhlil olunmamışdır. Tədqiqatın əsas məqsədi Mərkəzi Asiyanın türk dövlətlərinin regional nəqliyyat-enerji layihələri kontekstində Ermənistan siyasətini analiz etmək,

ikitərəfli əlaqələrin qarşısındakı geosiyasi məhdudiyyətləri və bu əlaqələrin real sərhədlərini müəyyən etməkdir.

## MATERİAL VƏ METODLAR

Tədqiqatın empirik materiallar bazasını Ermənistan Respublikası Statistika Komitəsinin, Qazaxıstan Respublikası Strateji Planlaşdırma və İslahatlar Agentliyinin Milli Statistika Bürosunun və Özbəkistan Respublikası Prezidenti yanında Statistika Agentliyinin rəsmi makroiqtisadi hesabatları təşkil edir. Eyni zamanda, Avrasiya İqtisadi İttifaqının (Aİİ) rəsmi ticarət analitikası bülletenləri, Türk Dövlətləri Təşkilatının (TDT) sammit bəyannamələri və Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutuna ("Orta Dəhliz") dair çoxtərəfli beynəlxalq müqavilələrin mətnləri ilkin mənbə materialları qismində götürülmüşdür. Ədəbiyyat bazası olaraq isə Cənubi Qafqaz və Mərkəzi Asiya regionlarının qarşılıqlı geosiyasi münasibətlərinə və regional inteqrasiya modellərinə dair son dövrlərdə dərc olunmuş beynəlxalq indeksli elmi məqalələr təhlil edilmişdir.

Metodoloji cəhətdən bu tədqiqat regionşünaslıq və beynəlxalq münasibətlər elminin sistemli və müqayisəli siyasi təhlil metodlarına əsaslanır. Tədqiqatın konseptual çərçivəsini qurmaq üçün aşağıdakı elmi üsullardan istifadə edilmişdir:

Geosiyasi regionallaşma metodu: Mərkəzi Asiyanın türk dövlətlərinin Ermənistanla münasibətlərində KTMT və AİI-dən irəli gələn "formal-hüquqi regional müttəfiqlik" ilə real iqtisadi-siyasi maraqlardan irəli gələn "faktiki regional inteqrasiya" (TDT və Azərbaycan oxu) arasındakı asimmetriyanı müəyyən etmək üçün tətbiq olunmuşdur.

Müqayisəli iqtisadi-statistik analiz: Mərkəzi Asiya ölkələrinin Cənubi Qafqaz dövlətləri (Azərbaycan və Ermənistan) ilə ticarət dövriyyəsinin həcmi, idxal-ixrac strukturu və nəqliyyat infrastrukturuna qoyulan investisiyaların nisbəti müqayisəli şəkildə təhlil edilmişdir. Bu metod mətndə təqdim olunan statistik göstəricilərin elmi interpretasiyası üçün əsas formalaşdırmışdır.

Tarixi-xronoloji və hadisə analizi: 1991–2020-ci illər intervalındakı "status-kvo" dövrü ilə 2020-ci il İkinci Qarabağ Müharibəsindən sonra yaranan yeni regional reallıqlar dövründə Mərkəzi Asiya ölkələrinin Ermənistan siyasətindəki dəyişikliklər və rəsmi bəyanatların tonu zaman oxu üzrə izlənilmişdir.

## NƏTİCƏLƏRİN MÜZAKİRƏSİ

Mərkəzi Asiyanın türk dövlətləri (Qazaxıstan, Özbəkistan, Türkmənistan, Qırğızıstan) ilə Ermənistan arasında müstəqillikdən sonra qurulan münasibətlərin iqtisadi və siyasi parametrlərinin təhlili göstərir ki, bu əlaqələr regionun digər dövlətləri ilə müqayisədə asimmetrik və məhdud xarakter daşıyır. Tədqiqat nəticəsində əldə olunan faktiki tapıntılar iki əsas istiqamət üzrə qruplaşdırılmışdır.

**İkitərəfli siyasi-diplomatik əlaqələrin qurulması və problemləri.** Mərkəzi Asiyanın türk respublikaları ilə Ermənistan arasında diplomatik münasibətlər 1992-1993-cü illərdə qurulsa da, bu əlaqələr heç bir periodda dərin strateji xarakter almamışdır. Qazaxıstan və Qırğızıstan Ermənistanla eyni regional təhlükəsizlik və inteqrasiya bloklarında (KTMT və AİI) yer almasına baxmayaraq, ikitərəfli əlaqələrdə hər zaman "soyuq neytrallıq" modelini üstün tutmuşlar. Özbəkistan isə Ermənistanın işğalçılıq siyasətinə kəskin etiraz olaraq uzun illər bu ölkədə səfirlik açmaqdan imtina etmiş və ikitərəfli münasibətləri ən alt səviyyədə saxlamışdır.

Bu problemlərin fundamental səbəbi Mərkəzi Asiyanın türk dövlətlərinin xarici siyasətindəki "Azərbaycan faktoru" və türk dünyası ilə inteqrasiya prioritetlədir. 1993-2020-ci illər arasında Ermənistanın Azərbaycan torpaqlarını işğal altında saxlaması dövründə, Mərkəzi Asiya dövlətləri Birləşmiş Millətlər Təşkilatı (BMT) və İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində keçirilən səsvermələrdə davamlı olaraq Azərbaycanın ərazi bütövlüyünü və suverenliyini dəstəkləyən qətnamələrin lehinə səs vermişlər. Bu xətt, Kollektiv Təhlükəsizlik Müqaviləsi çərçivəsində Ermənistanın gözlədiyi siyasi dəstəyi bloklayaraq, İrəvan ilə Mərkəzi Asiya ölkələrinin paytaxtları arasında etibarsızlıq mühiti yaratmışdır.

Tədqiqatın əldə olunan nəticələri göstərir ki, Mərkəzi Asiyanın türk dövlətləri ilə Ermənistan arasında formalaşan münasibətlər çoxtərəfli beynəlxalq təşkilatlar daxilində ciddi bir asimmetriya və daxili ziddiyyət ehtiva edir. Bu ziddiyyət özünü ən qabarıq şəkildə Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatı (KTMT) və Avrasiya İqtisadi İttifaqı (AİI) çərçivəsində büruzə verir. Ermənistan bu institutları özünün xarici siyasətində təhlükəsizlik çətiri və iqtisadi dayaq nöqtəsi kimi görsə də, təşkilat daxilindəki Mərkəzi Asiya müttəfiqləri, xüsusilə Qazaxıstan və Qırğızıstan, İrəvanın regional ambisiyalarını və hərbi-siyasi tələblərini hər zaman neytrallaşdırmağa çalışmışdır (Malikov, 2022).

Xüsusilə 2020-ci il İkinci Qarabağ Müharibəsi və ondan sonrakı sərhəd toqquşmaları dövründə Ermənistanın KTMT-ni Azərbaycana qarşı hərbi müdaxiləyə çağırmaq cəhdləri Mərkəzi Asiyanın türk dövlətlərinin qətiyyətli və balanslı mövqeyi ilə qarşılaşmışdır. Qazaxıstan və Qırğızıstan məsələnin Azərbaycanın suverenliyi və ərazi bütövlüyü çərçivəsində, BMT prinsipləri əsasında həllini müdafe edərək, təşkilatın Ermənistana birtərəfli hərbi dəstək verməsinin qarşısını almışdır (Satubaldina, 2023). Bu fundamental mövqe, Ermənistanın öz daxilində KTMT-yə qarşı ciddi bir etibarsızlıq və böhran dalğası yaratsa da, Mərkəzi Asiya dövlətlərinin Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsində Azərbaycan ilə qurduqları strateji müttəfiqliyin real çəkisini nümayiş etdirmişdir.

**Regional nəqliyyat-enerji və ticarət layihələrində Ermənistanın yeri və məhdudiyyətləri.** İqtisadi müstəvidə Mərkəzi Asiyanın böyük karbohidrogen resurslarının və logistik imkanlarının Cənubi Qafqaz üzərindən diversifikasiyası prosesində Ermənistandan tamamilə yan keçilmiş və izolyasiyada saxlanılmışdır. Bakı-Tbilisi-Ceyhan (BTC) neft kəməri və Bakı-Tbilisi-Ərzurum (BTƏ) qaz kəməri kimi nəhəng enerji layihələrində Türkmənistan və Qazaxıstan resurslarının Xəzər dənizi vasitəsilə daşınması sxemində Ermənistan coğrafi baxımdan hədəf ola bilsə də, siyasi səbəblərdən bu layihələrin tamamilə xaricində qalmışdır.

Eyni mənzərə nəqliyyat-kommunikasiya sahəsində də müşahidə olunur. Son dövrlərdə qlobal tədarük zəncirində əsas marşrutlardan birinə çevrilən Trans-Xəzər Beynəlxalq Nəqliyyat Marşrutu ("Orta Dəhliz") Çin və Mərkəzi Asiya yüklərini birbaşa Xəzər dənizi, Azərbaycan və Gürcüstan (həmçinin Bakı-Tbilisi-Qars dəmir yolu) üzərindən Avropaya daşıyır. Ermənistanın bu dəhlizə inteqrasiya olunmaq cəhdləri həm infrastruktur çatışmazlığı, həm də Azərbaycanla sülh sazişinin olmaması səbəbindən reallaşmamışdır. Eyni zamanda, AİI daxilində də iqtisadi inteqrasiya formallığı Ermənistanın nəqliyyat və kommunikasiya blokadasını yara bilməmişdir. Coğrafi baxımdan ittifaqın digər üzvlərindən təcrid olunmuş Ermənistan, Mərkəzi Asiya bazarlarına birbaşa quru çıxışı əldə edə bilmir.

Azərbaycanın təqdim etdiyi logistik marşrutların rentabelliyi Ermənistanın təklif etdiyi alternativ cəhdləri elmi və praktiki cəhətdən fəaliyyətsiz qoyur. Mərkəzi Asiyanın türk dövlətlərinin Cənubi Qafqaz ölkələri ilə ticarət dövriyyəsinin müqayisəsi Ermənistanın regional layihələrindəki iqtisadi məhdudiyyətlərini aydın göstərir (Cədvəl 1).

**Cədvəl 1. Mərkəzi Asiyanın türk dövlətlərinin Azərbaycan və Ermənistan ilə ticarət dövriyyəsinin müqayisəsi (milyon dollarla).**

| Mərkəzi Asiya Ölkəsi | Azərbaycan ilə Ticarət Dövriyyəsi | Ermənistan ilə Ticarət Dövriyyəsi | Nisbət Koeffisienti |
|---|---|---|---|
| Qazaxıstan | 520.4 | 34.2 | ~ 15 dəfə çox |
| Özbəkistan | 187.5 | 9.6 | ~ 19 dəfə çox |
| Türkmənistan | 285.0 | 6.1 | ~ 46 dəfə çox |

Cədvəl 1-in göstəricilərindən aydın olur ki, hətta Ermənistanla eyni gömrük ittifaqında (Aİİ) olan Qazaxıstanın belə Azərbaycanla iqtisadi əlaqələri İrəvanla olan əlaqələrini kəskin şəkildə üstələyir (Bureau of National Statistics, 2025). Bənzər şəkildə, Özbəkistan Respublikasının Cənubi Qafqaz ölkələri ilə apardığı xarici ticarət əməliyyatlarının analizi göstərir ki, Daşkəndin Bakı ilə strateji iqtisadi tərəfdaşlığı Ermənistanla olan simvolik əlaqələri tamamilə kölgədə qoyur (Statistics Agency of Uzbekistan, 2025). Türkmənistanın enerji və logistika trayektoriyasında isə Azərbaycan Xəzər dənizi üzərindən əsas qapı rolunu oynadığı halda, İrəvan xarici ticarətdə minimal paya malikdir (Eurasian Economic Commission, 2025).

Bu tendensiya, regional nəqliyyat və enerji layihələrində Ermənistanın iqtisadi cəhətdən bir "fəaliyyətsiz nöqtə" (dead-end) olduğunu və Mərkəzi Asiya dövlətlərinin praqmatik maraqlarının tamamilə Bakı oxuna yönəldiyini təsdiq edir. Bu geosiyasi mənzərə, Mərkəzi Asiyanın türk dövlətlərinin Ermənistan siyasətində kəskin və keçilməz "siyasi sərhədlər" müəyyən etdiyini sübut edir. Gələcək tədqiqat istiqamətləri baxımından qeyd edilməlidir ki, Cənubi Qafqazda sülh sazişinin imzalanması və regional kommunikasiyaların (o cümlədən Zəngəzur dəhlizinin) açılması prosesində Ermənistanın konstruktiv addımlar atacağı təqdirdə, bu siyasi sərhədlərin iqtisadi transformasiyaya uğraması mümkündür. Lakin mövcud reallıqda Mərkəzi Asiyanın türk dövlətləri üçün Ankara-Bakı strateji oxu İrəvanla olan formal ittifaqlardan qat-qat üstündür və bu reallıq yaxın perspektivdə regional təhlükəsizlik balansını müəyyən edən əsas faktor olaraq qalacaqdır.

## NƏTİCƏLƏR

Mərkəzi Asiyanın türk dövlətləri ilə Ermənistan arasında formalaşan ikitərəfli və regional münasibətlərin çoxvektorlu analizi nəticəsində aşağıdakı elmi-nəzəri və praktiki yekun nəticələr əldə edilmişdir:

İnteqrasiya Bloklarındakı Formal Asimmetriya: Ermənistanın regional təhlükəsizlik və iqtisadi inteqrasiya bloklarında (KTMT və Aİİ) Mərkəzi Asiya ölkələri (xüsusilə Qazaxıstan və Qırğızıstan) ilə formal müttəfiqliyinə baxmayaraq, bu əlaqələr dərin strateji və hərbi-siyasi mahiyyət kəsb etmir. Türk dövlətləri beynəlxalq hüququn prinsiplərinə sadiq qalaraq İrəvanın kollektiv iddialarını uğurla neytrallaşdırmışdır.

"Azərbaycan Faktoru"nun Həlledici Çəkisi: Bakı-Ankara strateji tərəfdaşlıq oxu və Mərkəzi Asiya ölkələrinin Türk Dövlətləri Təşkilatı (TDT) çərçivəsindəki prioritetləri Ermənistanla münasibətlərin xarakterini birbaşa müəyyən edir. Region dövlətləri işğal dövründə də, post-münaqişə mərhələsində də Azərbaycanın suverenliyini birmənalı dəstəkləmiş və İrəvanla siyasi məsafəni qorumuşdur.

Geoiqtisadi və Logistik İzolyasiya: Makroiqtisadi göstəricilər və xarici ticarət statistikası göstərir ki, Mərkəzi Asiya dövlətlərinin real iqtisadi maraqları tamamilə Azərbaycan vasitəsilə keçən qlobal layihələrə (BTC, BTƏ və "Orta Dəhliz") yönəlmişdir. Ermənistan bu transmilli infrastruktur şəbəkələrindən kənarda qalaraq regionda "fəaliyyətsiz nöqtə"yə (dead-end) çevrilmiş və ticarət dövriyyəsində minimal payla kifayətlənmişdir.

Gələcək Transformasiya Şərtləri: Ermənistanla Mərkəzi Asiyanın türk respublikaları arasında mövcud olan geosiyasi və iqtisadi "siyasi sərhədlər"in gələcəkdə dəyişməsi birbaşa olaraq Cənubi Qafqazda sülh sazişinin imzalanmasından və İrəvanın başda Zəngəzur dəhlizi olmaqla, regional kommunikasiyaların açılması prosesində nümayiş etdirəcəyi konstruktiv və praqmatik mövqedən asılıdır.

## ƏDƏBİYYATLAR


Bureau of National Statistics of the Agency for Strategic Planning and Reforms of the Republic of Kazakhstan. (2025). Foreign trade of the Republic of Kazakhstan: Statistical bulletin. Almaty.

Eurasian Economic Commission. (2025). On the state of mutual trade between the member states of the Eurasian Economic Union: Analytical report. Moscow: EEC.

Kazantsev, A., & Sablin, I. (2021). The South Caucasus and Central Asia: Geopolitical shifts and regional fragmentation. Central Asian Survey, 40(2), 185–201. https://doi.org/10.1080/02634937.2021.1913452

Malikov, T. (2022). CSTO and the South Caucasus conflicts: Institutional limits and collective security dilemmas. Journal of Eurasian Studies, 13(2), 142–155. https://doi.org/10.1177/18793665221104821

Məmmədov, E. (2023). Postsovet məkanında inteqrasiya modellərinin asimmetriyası: KTMT və Aİİİ nümunəsində. Beynəlxalq Hüquq və İnteqrasiya Problemləri, 28(1), 45–58.

Özyurt, M. (2024). Türk Devletleri Teşkilatı ekseninde Hazar geçişli lojistik koridorlar ve stratejik ortaklıklar. Avrasya Dünyası Dergisi, 12(1), 74–89.

Satubaldina, A. (2023). The Middle Corridor: Connecting Central Asia and Europe through the South Caucasus. The Astana Times. https://astanatimes.com/2023/the-middle-corridor-connecting-central-asia-and-europe

Statistics Agency under the President of the Republic of Uzbekistan. (2025). External economic activity of the Republic of Uzbekistan: Annual statistical report. Tashkent.

Sultanov, B. (2022). Multi-vector foreign policy strategies of Central Asian states in a changing global order. Post-Soviet Affairs, 38(4), 312–329. https://doi.org/10.1080/1060586X.2022.2045911

## SUMMARY

## THE TURKIC STATES OF CENTRAL ASIA AND ARMENIA: LIMITATIONS IN REGIONAL TRANSPORT-ENERGY PROJECTS AND POLITICAL BOUNDARIES OF BILATERAL RELATIONS

**Kamala Afandiyeva**
**Institute of Oriental Studies named after Academician Z.M. Bunyadov of ANAS, Baku, Azerbaijan**

The general background of the research consists of the bilateral relations established between the Turkic states of Central Asia and Armenia after the collapse of the USSR, as well as regional geopolitical realities. The main objective of the article is to identify the mechanisms of Armenia's exclusion from regional global transport and energy projects, the political boundaries formed in the relations of the Turkic states with this country, and the decisive impact of the Azerbaijan factor on this process. During the research, systemic and comparative political analysis, as well as historical-chronological methods were applied, and the official macroeconomic indicators of the regional countries were utilized as research materials. The obtained results indicate that although the Turkic republics of Central Asia are formal allies with Armenia within collective security and integration blocs, bilateral trade and economic relations remain at a minimal level. Current real economic and logistic interests are entirely oriented toward Azerbaijan and Turkey through the "Middle Corridor" route, leaving Yerevan in geopolitical isolation. In conclusion, it should be noted that the future dynamics of relations with Armenia and the transformation of existing political boundaries directly depend on the newly emerging geopolitical conditions in the South Caucasus, as well as Yerevan's constructive position in the process of opening regional communications, particularly the Zangezur corridor, and its capacity to establish a strategic balance.

***Keywords**: Central Asia, Armenia, transport-energy projects, Middle Corridor, political boundaries*

## АННОТАЦИЯ

# ТЮРКСКИЕ ГОСУДАРСТВА ЦЕНТРАЛЬНОЙ АЗИИ И АРМЕНИЯ: ОГРАНИЧЕНИЯ В РЕГИОНАЛЬНЫХ ТРАНСПОРТНО-ЭНЕРГЕТИЧЕСКИХ ПРОЕКТАХ И ПОЛИТИЧЕСКИЕ ГРАНИЦЫ ДВУСТОРОННИХ ОТНОШЕНИЙ

**Кямаля Эфендиева**
**Институт востоковедения имени академика З.М. Буниятова НАНА, Баку, Азербайджан**

Общий информационный контекст исследования составляют двусторонние отношения, сформировавшиеся после распада СССР между тюркскими государствами Центральной Азии и Арменией, а также региональные геополитические реалии. Основная цель статьи заключается в определении механизмов исключения Армении из региональных глобальных транспортно-энергетических проектов, политических границ, сформировавшихся в отношениях тюркских государств с этой страной, и решающего влияния азербайджанского фактора на данный процесс. В ходе исследования были использованы системный и сравнительный политический анализ, а также историко-хронологические методы, в качестве материала взяты официальные макроэкономические показатели стран региона. Полученные результаты показывают, что хотя тюркские республики Центральной Азии и являются формальными союзниками Армении по блокам коллективной безопасности и интеграции, двусторонние торгово-экономические связи находятся на минимальном уровне. Существующие реальные экономико-логистические интересы полностью направлены на Азербайджан и Турцию по линии «Срединного коридора», что подвергло Ереван геополитической изоляции. В качестве окончательного вывода следует отметить, что будущая динамика отношений с Арменией и изменение существующих политических границ напрямую зависят от новых геополитических условий, формирующихся на Южном Кавказе, а также от конструктивной позиции Еревана в процессе открытия региональных коммуникаций, в частности Зангезурского коридора, и его возможностей по созданию стратегического баланса.

***Ключевые слова:*** *Центральная Азия, Армения, транспортно-энергетические проекты, Срединный коридор, политические границы*